**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri**
**cənab Anar Bağırova**

Naxçıvan MR Sədərək rayon Qarağac kənd sakini
İsmayılov Elnur Bayram oğlu tərəfindən

# TƏŞƏKKÜR MƏKTUBU

**Bu məktubu fərəh hissi ilə Sizə ünvanlayıb bildirirəm ki, Bakı şəhəri 13 saylı Vəkil Bürosunun vəkili cənab Emin Məmmədovun çətin günümdə ümid bəsləyərək uzatdığım əli geri qaytarmayaraq vaxtında cəsarətlə göstərdiyi keyfiyyətli pulsuz hüquqi yardım sahəsində hüquqlarımın polis, məhkəmə və prokuror tərəfindən pozulmasının qarşısı alındı. Hətta vəziyyət o yerə çatdı ki, mən hüquqlarım barəsində vəkildən ətraflı məlumat alıb bu orqanlara qarşı müvafiq tələblər də irəli sürdüm.**

**Bu gün yeni nəsil vəkillər arasında belə cəsarətli, peşəkar və savadlı vəkilin olması Sizin rəhbərliyiniz sayəsindədir və mən sadə bir vətəndaş kimi ailəmə bəxs edilmiş bu qürurverici sevincə görə ölkəmizin başçısı cənab İlham Əliyevə, şəxsən sizə və vəkil Emin Məmmədova səmimi qəlbdən minnətdaram. Belə çəsarətli hüquq müdafiəçilərimiz çox olduqca vətəndaşlarımızın hüquqlarının pozulması halları minimum edir.**

**Bir daha aparılan səmərəli hüquqi islahatlara görə ölkə başçısı cənab İlham Əliyevə, Vəkillər Kollegiyasının tərkibində peşakar, savadlı və cəsarətli vəkillər olduğuna görə şəxsən Sizə və hüquqlarımı pozan dövlət orqanlarına qarşı cəsarətlə göstərdiyi pulsuz və keyfiyyətli hüquqi yardıma görə isə vəkil Emin Məmmədova dərin minnətdarlığımı bildirirəm.**

**Allah Sizləri qorusun, həmişə var olun.**

**Hörmətlə,**
**İmza:** **İsmayılov Elnur Bayram oğlu**

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 954
«19» 04 2021 il